Azərbaycan.- 2021.- 11 iyun. S. 5.

# ABŞ universitetinin professoru ADAU-da mühazirə oxumuşdur

Azərbaycan Dövlət Aqrar Universiteti xarıcı ölkələrin tanınmış universitetləri ilə əməkdaşlığı ildən-ilə genişləndirir. Belə universitetlərdən biri də ABŞ-ın İllinoys Universitetidir.

Tez-tez həmin təhsil ocağının alimləri ADAU ilə əlaqə saxlayır, maraqlı mühazirələrlə çıxış edirlər. Bu əlaqələr hətta pandemiya dövründə də onlayn qaydada davam etdirilmişdir.

Bu günlər ABŞ-ın adıçəkilən universitetinin professoru Məhəmməd Babadoost onlayn qaydada aqrar universitetinin professor-müəllim heyəti və tələbələri üçün “Bitki xəstəliklərinin idarə edilməsi” mövzusunda mühazi-



rə oxumuşdur. Mühazirədə universitetin bitki mühafizəsi, aqronomluq, torpaqşünaslıq və aqrokimya ixtisasları üzrə tələbələr, magistrantlar, doktorantlar və müəllimlər iştirak etmişlər.

Qeyd edək ki, Azərbaycan Dövlət Aqrar Universitetində keçirilən onlayn dərslərə Türkiyə, Rusiya, Almaniya, Sloveniya, Polşa, Rumıniya, Bolqarıstan və digər ölkələrin alimləri də cəlb olunmuşdur.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***